**UOT 069.7**

**Sevinc Ayazqızı /Heydərova/**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan
Ədəbiyyatı Muzeyi
heydarova.sevinj@mail.ru

# AZƏRBAYCAN MİLLİ MƏTBUATINDA MİLLİ KİMLİYİMİZİN TƏZAHÜRÜ

**Açar sözlər:** mətbuatın yaranması; milli mətbuat; Nizami muzeyinin ekspozisiyası
**Keywords:** establishment of press, national press; Nizami museum's exhibition
**Ключевые слова:** создание прессы, национальная пресса; експозиция музея Низами

**Giriş.** Hər bir ədəbi mətbuat müəyyən tarixi-mədəni şəraitdə, ədəbi hərəkatın tələblərindən yaranır və onu ifadə edir. Ədəbi mətbuatın gücü bağlı olduğu ədəbi hərəkatdan, ifadə və təqdim etdiyi ədəbiyyatdan asılıdır. Bu zaman ədəbi mətbuat obyektiv olaraq ədəbi hərəkatın ideoloji və estetik enerjisindən asılı olduğu kimi, özünün də xarakteri, ideya-bədii xüsusiyyətləri, qarşısında duran vəzifələrin öhdəsindən nə qədər gəlməsi ilə də səciyyələnir.

Moskvada rus dilində çıxan "Literaturnaya qazeta" ("Ədəbiyyat qəzeti") 1929-cu ilin aprel ayında rus və daha sonra sovet yazıçılarının ədəbi orqanı kimi təsis və təsdiq olunmuşdur. Qəzet üstündə yarandığı tarixə işarə olaraq həmin dövr ədəbiyyatının ideoloqu və ilhamvericisi, habelə qəzetin təşəbbüsçüsü Maksim Qorkinin simvolik şəkli ilə bu gün də nəşr olunur. Amma eyni zamanda qəzetin birinci səhifəsində ondan da qabaq yaşayıb-yaratmış böyük rus şairi A.S.Puşkinin loqotipi yer almışdır. Məlumdur ki, hələ 1830-1831-ci illərdə A.S.Puşkinin təşəbbüsü ilə Peterburqda "Literaturnaya qazeta" işıq üzü görmüşdür [10, s.78]. Bu isə həmin adda qəzetin və qəzet ideyasının hələ XIX əsrin 30-cu illərindən mövcud olmasından və yüz il sonra – XX əsrin 30-cu illərində bərpa edilməsindən xəbər verir. Beləliklə, "Literaturnaya qazeta" iki əsrdən də artıqdır ki, ümumən müasir rus ədəbiyyatının yaranması və inkişafı hərəkatını xarakterizə edir və bu gün də həmin vəzifəni yerinə yetirməkdə davam edir.

1836-cı ildə Rusiyada, Sankt-Peterburda daha bir mətbu orqan – "Sovremennik" adlı jurnal A.S.Puşkin tərəfindən təsis olunaraq XIX əsrdə rus realist ədəbiyyatının yaranmasını müjdələmiş və 30 ildən artıq nəşr edilmişdir. Ayrı-ayrı illərdə A.Puşkin, N.Qoqol, N.Nekrasov, L.Tolstoy, İ.Turgenev, F.Dostoyevski, A.Gertsen, N.Çernışevski, N.Dobrolyubov, M.Saltıkov-Şedrin və digər yazıçı və münəqqidlər jurnalda çap olunmuşlar [10, s.231-232]. Demək, jurnal müasir rus ədəbiyyatının yaranmasında az qala həmin ədiblər qədər iş görmüş, xidmət göstərmişdir.

**Milli mətbuatın yaranması.** Azərbaycanda ilk dəfə milli mətbuatın əsasını qoymuş Həsən bəy Zərdabinin "Əkinçi" qəzeti (1875-1877) böyük maarifçi Mirzə Fətəli Axundzadənin maarifçilik hərəkatını gerçəkləşdirə, həyata keçirə bilmişdir.

1875-ci il iyulun 22-də Bakıda "Əkinçi" qəzetinin birinci nömrəsini çap etdirən Həsən bəy Zərdabi İstanbuldan ərəbcə mətbəə hərfləri (şriftləri), Tiflisdən və başqa şəhərlərdən mətbəə avadanlıqları alıb gətirmişdi. 1875-1877-ci illər ərzində "Əkinçi"

qəzetinin 56 nömrəsi çapdan çıxdı. İki il nəşr ounan qəzet bağlandıqdan sonra, 1879-cu ildə “Ziya”, “Ziyayi-Qafqaziyyə”, “Kəşkül” qəzetləri nəşr olunmağa başladı. Ana dilində çap olunan, eyni zamanda sənət və ədəbiyyat məsələlərinə də diqqət ayıran “Əkinçi” hətta Qərb ölkələrində də tanınırdı. Həsən bəy Zərdabi o dövrün görkəmli ziyalılarını qəzetin ətrafında birləşdirmişdi. “Əkinçi”nin nömrələri “Daxiliyyə”, “Əkin və ziraət xəbərləri”, “Mətbuat”, “Elm xəbərləri” və “Təzə xəbərlər” kimi xüsusi başlıqlar altında nəşr olunurdu.

Qəzetdə Həsən bəy Zərdabi, Mirzə Fətəli Axundzadə ilə yanaşı, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani kimi XIX əsr ədibləri şeir, hekayə və məqalələrini dərc etdirmişlər. Sonralar Həsən bəy Zərdabi “Həyat” qəzetində dərc etdirdiyi “Rusiyada əvvəlinci türk qəzetəsi” adlı məqaləsində “Əkinçi”nin məramı barədə yazırdı: “Belədə qəzetə çıxarmaqdan savay bir qeyri əlac yoxdur ki, kağızın üstə yazılmış doğru sözlər qapı-pəncərələrdən o iman mənzillərinə çata bilsin. Heç olmaz ki, doğru söz yerdə qalsın. Hər ildə on qəzet oxuyandan birisi oxuduğunu qansa, onların qədəri ilbəil artar. Axırda o bənd ki suyun qabağını kəsmişdi və suyu axmağa qoymurdu, rəxnə tapar və su mürur ilə bəndi uçurub aparar. Sonra düşmənin düşmənliyi, dostun dostluğu və dost göstərən doğru yolun doğru olmağı aşkar olar” [7, s.10].

Bu sözləri yazarkən milli mətubatımızın banisi və ağsaqqalı olan ədibin fikir və arzuları artıq həqiqətən də həyata keçmiş, XX əsrin əvvəllərində Azərbaycan həyatında yaşanan milli intibah əhvali-ruhiyyəsi, inqilabi hadisələr, milli istiqlal və romantizm hərəkatının başlanması mətbuatda da əks-səda tapmışdı. Məhəmmədağa Şahtaxtlının “Şərqi-Rus” (1903-1904) və Əlibəy Hüseynzadə ilə Əhməd bəy Ağaoğlunun “Həyat” (1905-1906) qəzetləri XX əsr milli mətbuat və fikir tarixində inqilabi oyanışın carçıları olur. Bundan sonra “Füyuzat”, “Molla Nəsrəddin”, “İrşad”, “Təzə həyat”, “Tərəqqi”, “Dəbistan”, “Təkamül”, “Bəhlul”, “İttifaq”, “Zənbur”, “Rəhbər”, “Həqiqət”, “Yeni həqiqət”, “Günəş”, “Məlumat”, “Yeni irşad”, “İqbal”, “Yeni iqbal”, “Açıq söz”, “İşıq”, “Haqq yolu”, “Kəlniyyət”, “Şəlalə”, “Məktəb”, “Bakı həyatı”, “Yoldaş”, “Səda”, “Sədayi-vətən”, “Sədayi-Qafqaz”, “Hilal”, “Şəhabi-saqib”, “Yeni füyuzat”, “Nicat”, “Dirilik”, “Bəsirət”, “Babayi-Əmir”, “Doğru söz”, “Qurtuluş”, “Hümmət” (Bakıda) və s. qəzetlər nəşr edilərək [2, s.38-39] XX əsrin əvvəlləri Azərbaycan cəmiyyətinin əsl tərcümanı oldu.

Tədqiqatçıların müəyyənləşdirdiyinə görə, “XX əsrin əvvəllərində Azərbaycanda ümumən 130-dan çox Azərbaycan və rusdilli mətbuat orqanı nəşr edilmişdir” [9, s.45]. Bu nəşrlərdə dövrün ictimai-siyasi ab-havasını əks etdirən publisistika ilə yanaşı, az və ya çox dərəcədə ədəbiyyata da yer verilmiş, maarifçilik ədəbiyyatının bir çox nümunələri məhz bu mətbuatda dərc olunmuşdur.

**“Füyuzat” və “Molla Nəsrəddin” dərgiləri.** Bütün bu nəşrlər içərisində tədqiqatçılar xüsusən iki mətbuat orqanına – Əlibəy Hüseynzadənin “Füyuzat” (1906-1907) və Cəlil Məmmədquluzadənin “Molla Nəsrəddin” (1906-1931) dərgilərinə daha böyük önəm verirlər. Təkcə ictimai-siyasi çəkisi, milli ideologiyanı yönəltmək baxımından yox, türkçülük və azərbaycançılıq məfkurəsinin meydana çıxmasında bu nəşrlərin rolu həqiqətən də əvəzsizdir. Həm də ona görə ki, hər iki dərgiyə ədib və mütəfəkkir olan şəxsiyyətlər rəhbərlik etmiş, nəticədə bu nəşrlər həm də ədəbi mətbuat kimi milli ədəbiyyatın inkişafında böyük rol oynamışlar.

Əlibəy Hüseynzadə yazırdı: “Osmanlı türklərinin ədəbiyyati-cədidələri müstəsna olduğu halda, İranla bərabər sair türklərin əş`ar və ədəbiyyatları tilsimə

giriftar olmuş kimi bir nöqtədə donub qalmışdır. Təb`i-şairanə güldən, bülbüldən, mey və məhbubdan ayrılamıyordu...” [6, s.3]

“Füyuzat” az bir müddətdə çıxsa da, həmin kəsiri aradan qaldıra bildi, yalnız şeir, ədəbiyyat dərc etməklə qalmadı, yeni ədəbiyyata istiqamət və təkan verdi. Nəticədə Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının formalaşmasına səbəb oldu. Belə ki, Azərbaycan ədəbiyyatının böyük bir qolu – Məhəmməd Hadi, Hüseyn Cavid, Abbas Səhhət, Abdulla Şaiq, Səid Səlmasi, Abdulla bəy Divanbəyoğlu və bu kimi sənətkarların yaradıcılığı birbaşa və ya dolayısı ilə “Füyuzat”dan gələn estetik ənənələr üzərində qərar tapdı.

Yaşar Qarayevin fikrincə: “Yeni yüzilin əvvəlinin ən böyük hadisəsi iki böyük mətbuat orqanının – “Molla Nəsrəddin” (Tiflis, 1906, 07 aprel) və “Füyuzat” (1906, 01 noyabr) dərgilərinin fəaliyyətə başlaması olur. Ədəbi hərəkatın aparıcı istiqamətləri – tənqidi realist və mücadiləçi, istiqlalçı romantik üslublar hər ikisi məhz bu dərgilərin ətrafında, onların ictimai-ədəbi məktəbləri kimi formalaşır. Tamamilə təbiidir ki, həm ideya-məfkurə proqramı, həm də bədii-estetik sistem baxımından tənqidi realizm cərəyanı ilə “Molla Nəsrəddin” ədəbi məktəbi və romantizm cərəyanı ilə “Füyuzat” ədəbi məktəbi tamamilə üst-üstə düşür...” [8, s.394]

Cəlil Məmmədquluzadə deyirdi: “Hər bir qələm sahibinin öz müqəddəs vəzifəsi var: birinci növbədə millətin xoşbəxtliyi yolunda xidmət etmək...” [5] Və “Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım!” manifesti ilə çıxmağa başlayan “Molla Nəsrəddin” jurnalı tez bir zamanda, həqiqətən də, əsl “millət ədəbiyyatı”nın, Azərbaycan realizminin yaranmasına rəvac verdi. İsa Həbibbəyli doğru olaraq yazır: “Molla Nəsrəddin” jurnalı ətrafına cəmləşdirdiyi qələm sahiblərini konkret və ciddi ictimai əhəmiyyətə malik olan yığcam əsərlər yazmağa çağırmışdır. C.Məmmədquluzadə bu fikirdə idi ki, müəlliflərin “cibinin xeyrindən ötrü” yazılan, “xalqı yuxuya salan” bədii-publisist əsərlərdən “heç bir məna” çıxmadığı üçün belə nümunələri çap etmək, oxuculara çatdırmaq günahdır. Əsl cəsarət “qoluçomaqlıların hünərlərindən” yazmağı bacarmaqdır” [4, s.271-272]. Jurnal ətrafında Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Ömər Faiq Nemanzadə, Əli Nəzmi, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Mirzə Əli Möcüz və bu kimi realist ədiblər toplaşaraq millətin dərdindən, ictimai bəlalardan yazdılar, cəmiyyətin problemlərini təhlil və tənqid etdilər və nəinki öz dövrlərində, bütünlükdə XX əsrdə Azərbaycan ədəbiyyatının inkişaf istiqamətini təyin etdilər.

**Mətbuat tariximiz AMEA Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin ekspozisiyasında.** Muzeyin milli mətbuatımıza həsr olunmuş ekspozisiyasında mətbuatımızın yaranmasında əvəzsiz xidməti və zəhməti olan Həsən bəy Zərdabinin surəti rəssam Nəcəfqulu tərəfindən kətan üzərində yağlı boya ilə işlənmişdir. Bu əsər "Həsənbəy Zərdabi "Əkinci" qəzeti nəşr olunan zaman mətbəədə" (inv. № 2723, ölçüsü: 101x151) adlanır. Heykəltəraşlar Elcan Şamilov və Əhməd Salikov tərəfindən isə kəcdən hazırlanmış heykəli (inv. № 2720a, hündürlüyü: 1,60) ucaldılmışdır. Eyni zamanda "Əkinçi" qəzetinin 1877-ci ildə nəşr olunmuş sayı nümayiş etdirilir. “Əkinçi” qəzetindən əlavə “Kəşkül” (№123, Bakı, 18 oktyabr 1891, əsli), atlas parça üzərində nəşr olunmuş “Nicat” (№1, 20 noyabr 1910) və “Həyat” (№1, 07 iyun 1905) qəzetləri də ekspozisiyada yer almışdır.

Kitab vitrinlərində isə Sadıq Hüseynovun “Əkinçi” izahlı biblioqrafiyası”, Nazim Axundovun “Azərbaycan mətbuatının ilki”, Vəli Məmmədovun “Əkinçi”

qəzeti", İslam Ağayevin "Satirik "Zənbur" jurnalı", Şamil Vəliyevin "Füyuzat" ədəbi məktəbi", Əli Nəzminin "Satira məcmuələri" və başqa əsərləri yer almışdır.

Ədəbiyyatımızın, mətbuatımızın aydınları, fikir və düşüncələri, ziyalıları Cəlil Məmmədquluzadənin, Ömər Faiq Nemanzadənin, Əbdürrəhim bəy Haqverdiyevin, Əliqulu Qəmküsarın, Ömər Faiq Nemanzadənin, Məmməd Səid Ordubadinin, Əliağa Vahidin, Əli Nəzminin, Cəfər Cabbarlının, Üzeyir Hacıbəyovun, Məmmədəli Sidqinin, Əzim Əzimzadənin, Mirzə Ələkbər Sabirin – "Molla Nəsrəddin" jurnalının fəal iştirakçılarının rəssam Nəcəfqulu tərəfindən sulu boya, qrafik üslubda və 23x5x18 ölçüdə çəkilmiş rəsmləri ekspozisiyada nümayiş olunur. "Molla Nəsrəddin" jurnalında öz dəsti-xətti olan hər bir yazıçının təxəllüsü var idi. Cəlil Məmmədquluzadə – Molla Nəsrəddin, Mirzə Ələkbər Sabir – Hop-Hop, Əliqulu Qəmküsar – Cüvəllağı bəy, Məmməd Səid Ordubadi – Hərdəmxəyal, Əli Nəzmi – Məşədi Sijimqulu, Əbdürrəhim bəy Haqverdiyev – Lağlağı. Ekspozisiyada Cəlil Məmmədquluzadənin, Əbdürrəhim bəy Haqverdiyevin, Əli Nəzminin şəxsi əşyaları da nümayiş olunur.

Həqiqətləri yazan jurnalın əsas məqsədi xalqın oyanışı və ictimai-mədəni tərəqqisi idi. "Molla Nəsrəddin" jurnalı təxminən 25 il – 1906-1918-ci illərdə Tiflisdə, 1921-1922-ci illərdə Təbrizdə və 1922-1931-ci illərdə isə Bakıda nəşr olunmuş, ümumilikdə 748 sayı işıq üzü görmüşdür. Muzeyin ekspozisiyasında "Molla Nəsrəddin" jurnalının bir neçə nüsxəsi təqdim olunmuşdur. Jurnalın Yaxın Şərqdə çıxan jurnallardan fərqi onun şəkilli nəşr olunması idi. Bu da oxucuya mətnin mənasını anlamağa imkan yaradırdı. Eyni zamanda jurnalda felyetonlar, məzəli teleqraf xəbərləri, siyasi tapmacalar, təmsillər, tərsinə çevrilmiş və yaxud mənası dəyişdirilmiş atalar sözləri, yumorlu yazılar, atmaca və lətifələr, karikatura və illüstrasiyalar əsas yer tuturdu. Bu işdə əcnəbi rəssamlar alman mənşəli rus rəssamı, karikaturaçı "Molla Nəsrəddin" redaksiyasının əməkdaşı Oskar İvanoviç Şmerlinq və alman rəssamı İosif Rotterin xüsusi əməyi var idi. Sonralar görkəmli rəssam Əzim Əzimzadə onların işini davam etdirdi. Muzeyin ekspozisiyasında Əzim Əzimzadənin Mirzə Ələkbər Sabirin şeirləri əsasında çəkdiyi maraqlı, eyni zamanda həm güldürən, həm də düşündürən illüstrasiyaları divar boyunca yer almışdır.

"Molla Nəsrəddin" satirik jurnalı haqqında çoxlu sayda məqalələr, tədqiqatlar, monoqrafiyalar çap olunmuşdur. Muzeydə sərgilənən kitablar sırasında Əziz Şərifin "Molla Nəsrəddin" (Cəlil Məmmədquluzadə)", Qulam Məmmədlinin "Molla Nəsrəddin", Abbas Zamanovun "Mollanəsrəddinçi şairlər", İslam Ağayevin "Molla Nəsrəddin"in poetikası" və "Molla Nəsrəddin"in tarixi hünəri", Xeyrulla Məmmədovun "Əkinçi"dən "Molla Nəsrəddin"ə qədər", Əziz Mirəhmədovun "Azərbaycanın Molla Nəsrəddini", Nazim Axundovun "Molla Nəsrəddin"in nəşri tarixindən", Şamil Vəliyevin (Körpülü) "Füyuzat ədəbi məktəbi" və s. adlı kitablar da vardır.

Ekspozisiyada xatirə saatlardan ibarət guşənin mərkəzində "Molla Nəsrəddin" redaksiyasının saatı nümayiş olunur. Ətrafında isə Azərbaycanın dəyərli qələm sahiblərinin xatirə saatları yer almışdır. Bu saatların nümayişi isə xüsusi marağa səbəb olur. Vaxtın, zamanın yaradıcı insan üçün nə qədər dəyərli olduğu, təbii ki, hər kəsə məlumdur.

**Nəticə.** Azərbaycan mətbuatının növbəti sıçrayış dövrü 1920-1930-cu illərin mədəni inqilab epoxasıdır. Dərin ziddiyyətlər, ictimai təzadlar, repressiya və sürgünlərlə müşayiət olunsa da, həmin dövrü yalnız "bolşevik işğalı", sosializm quruculuğunun fəsadları ilə səciyyələndirmək doğru olmaz. Bu həm də Azərbaycan

xalqının XX əsrdə milli varlığını qoruyub saxlamaq, dilini, mədəniyyətini, tarixi dəyərlərini inkişaf etdirmək uğrunda ölüm-dirim savaşına çıxdığı onillərdir. Dövrün inqilabi bəlalarına düçar olmaqla yanaşı, əsrin əvvəllərinin, habelə Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) milli ənənələri 1920-1930-cu illərdə yeni, sosializm şəraitində inkişaf etdirilmişdir. "Ədəbiyyat qəzeti"nin yaranması da (01 yanvar 1934) məhz bu dövrə təsadüf edir. "Ədəbiyyat qəzeti"nin ("Ədəbiyyat və incəsənət") XX əsr Azərbaycan ədəbiyyatı tarixində rolu böyükdür. "Ədəbiyyat qəzeti" 1930-cu illərdə təkcə ideoloji rupor kimi yaranmamışdır, sovet dövründə təsis olunsa da, qəzet həm də Azərbaycan ədəbiyyatının XX əsr tendensiyalarını ifadə edən və yaradan ədəbi mətbuat olmuşdur.

1920-1930-cu illərdə çox sayda ictimai-siyasi mətbuatla yanaşı, ilk dəfə olaraq həm də ədəbi mətbuat yaranmışdır. İlk belə bir mətbuat o zaman "Maarif və mədəniyyət" adı ilə çıxmağa başlayan (1923) "Azərbaycan" jurnalıdır . Burada yeni quruluşun təbliği ilə bağlı ümumideoloji məsələlər ümdə yer tutsa da, bununla belə, jurnalın əsas məqsədi yeni yaranan ədəbiyyatı – şeir, hekayə, roman və publisistikanı geniş oxucu auditoriyasına çatdırmaq idi. Bütün sovet dövründə müxtəlif adlarla: "Maarif və mədəniyyət" (1923-1927), "İnqilab və mədəniyyət" (1928-1936), "Revolyusiya və kultura" (1936-1941), "Vətən uğrunda" (1941-1946), yenidən "İnqilab və mədəniyyət" (1946-1952), ən nəhayət "Azərbaycan" adı ilə (1953-cü ilin yanvarından) çıxan jurnal [1] bu missiyanı doğrultdu, sovet dövrü Azərbaycan ədəbiyyatının nəinki ifadəçisinə çevrildi, habelə onun inkişafında mühüm rol oynadı.

Xalqı maarifləndirmək, elmə həvəsləndirmək üçün dövri mətbuata hər zaman ehtiyac olmuşdur. Əsrləri, illəri adlamış Azərbaycan mətbuatının xidməti danılmazdır. Ulu Öndər Heydər Əliyev mətbuatı daim yüksək qiymətləndirmiş, onun "çox zəngin və şərəfli inkişaf yolu keçdiyini, xalqımızın həyatının bütün sahələrini, istək və arzularını daim öz səhifələrində əks etdirdiyini, milli şüurun, mənəviyyatın, mədəniyyətin formalaşmasına və inkişafına güclü təkan verdiyini" söyləmişdir [3, s.320].

C.Məmmədquluzadənin dediyi kimi, "millətə xidmət etmək" eşqiylə alışıb-yanan mətbuatımızın bugün də qələmi Azərbaycan dili və ədəbiyyatı məsələlərinə, mədəniyyətin inkişafına və s. sahələrə xidmət göstərir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. "Azərbaycan" jurnalının biblioqrafiyası (1923-1972). Bakı: "Elm", 1973, 604s.
2. Əhmədov B.B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: "Elm və təhsil", 2011, 480 s.
3. Əliyev H.Ə. Müdrik fikirlər // Bakı: "Çaşıoğlu", 2008, 2 cilddə, c.1, (iyun 1993–oktyabr 1998), 399 s.
4. Həbibbəyli İ.Ə. Cəlil Məmmədquluzadə. Mühiti və müasirləri. Bakı: "Azərnəşr", 1997, 684 s.
5. https://celilmemmedquluzade.wordpress.com/yaradiciligi-2/
6. Hüseynzadə Ə.H. (Əli Hüseyn Turan). Həyat və meyli-füyuza // "Füyuzat", I sayın faksimile nəşri. 1906, VII. Bakı: "Nurlar", s. 3
7. Məlikov Həsənbəy (Zərdabi). Rusiyada əvvəlinci türk qəzetəsi / H.Zərdabi, F.Ağazadə. "Əkinçi". Bakı: "Xalq qəzeti", 2008, 54 s.

8. Qarayev Y.V. Azərbaycan ədəbiyyatı. XIX-XX yüzillər. Bakı: “Elm”, 2002, 740 s.
9. Vəliyev Ş.Q. Füyuzat ədəbi məktəbi. Bakı: “Elm”, 1999, 444 s.
10. Кулешов В.И. История русской критики. М.: Просвещение, 1978, 526 с.

**Sevinc Ayazqızı /Heydarova/**
**Ph.D in philology**

## The reflection of national identity ideas on Azerbaijan’s national press

It is known that the literary press is formed on certain cultural-historical circumstances and it is the expression of it. The power of influence the literary press is closely connected with the literary trend which it represents. The formation of literary press depends on aesthetic and ideological base of the literary movement for concrete historical period. It is characterized with the special ideological-artistically features.

For the first time in Azerbaijan this mission was realized by the founder of the first newspaper in Azerbaijani the great enlightener H.Zardabi. This year is 145-anniversary of “Ekinchi”s (“Ploughman”) establishment.

Alongside with dreams and ideas of the founder of Azerbaijani national press came to realize, his ideas about national independence, revolutionary events and the beginning of national independence and romanticism movement were also described at national press. The newspapers “Shargi-Rus” (1906-1907) by Mahammadagha Shahtakhtly and “Hayat” (1905-1906) by Ahmed bek Aghaoghlu and Ali-bek Huseinzade were the heralds of revolutionary enlightenment in the history of national press and thought of XX century.

National Museum of Azerbaijan Literature is one of the most important centers of study and preservation literary and cultural values of Azerbaijani people.

It is presented in the exhibition of the National Museum of Azerbaijan Literature named after Nizami Ganjevi the materials reflecting the history of foundation the magazine “Ekinchi” and other documents about magazines that further continued “Ekinchi” traditions in Azerbaijani press.

At the exhibition were put on display the first issue of the magazine published in 1877, the original issues of “Keshkul” magazine, issues of “Hayat” and “Nijat” magazines published on textile and scientific researches dedicated to the history of Azerbaijani National press formation.

***Севиндж Аязгызы / Гейдарова***

**Отражение идей национального самосознания в национальной печати Азербайджана**
***Резюме***

Литературная пресса каждой страны формируется при определенных историко-культурных условиях, отвечающих требованиям литературных течений определенного периода и является их прямым выражением. Сила воздействия литературной прессы зависит от того с каким литературным течением оно связано, какое литературное течение представляет. В то же время литературная пресса, сформированная под влиянием идеологической и эстетической энергии литературного, которое оно представляет имеет собственную характеристику и характеризуется тем, каким образом достигает поставленных задач.

Создание национальной печати в Азербайджане связано с именем Гасан-бека Зардаби. Создание отмечающей в этом году 145-летие со дня основания газеты «Экинчи» являлось одним из важнейших событий в процессе формирования азербайджанской литературно-общественной мысли 70-х годов XIX-го столетия. Издание на родном языке газеты «Экинчи» явилось ценным вкладом в развитие и распространение демократических и просветительских идей, своего рода «зеркалом», в котором были отражены все события тех лет.

По мнению исследователей в начале XX века в Азербайджане существовало более 130 печатных органов на русском и азербайджанском языках, но наиболее значимыми считаются 2 издания журнал «Фьюзат» (1906-1907), издаваемый Алибеком Гусейнзаде и журнал «Молла Насреддин» (1906-1931) издаваемый Джалилем Маммедкулизаде. Необходимо отметить их роль не только как ценных общественно-политических изданий, но и их вклад в развитие и распространение идей тюркизма и азербайджанства в регионе.

Музей Азербайджанской литературы имени Низами Гянджеви это важнейший центр, пропагандирующий и хранящий национально-культурные ценности Азербайджана. В музее созданы залы посвященные истории создания газеты «Экинчи» («Сеятель») и другим изданиям, продолжающим традиции, заложенные «Экинчи» в Азербайджане. В экспозиции музея экспонируются первый номер газеты «Экинчи» опубликованный в 1877 году, оригинальный выпуск газеты «Кешкюль», выпуски газет «Ниджат» и «Хаят», напечатанные на атласной материи и научно-исследовательские работы, посвященные истории зарождения азербайджанской национальной прессы.